# Azərbaycan Respublikasının
# Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

## ƏMR

№ 46

Bakı şəhəri "05" iyul 2021-ci il

**Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında İctimai şuranın seçki komissiyasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 9 noyabr 2007-ci il tarixli 647 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi haqqında Əsasnamə"nin 14.5-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında İctimai şura üzvlüyünə seçkilərin təşkili məqsədi ilə aşağıdakı tərkibdə İctimai şuranın seçki komissiyası yaradılsın:

| | |
|---|---|
| Rəşad Sahil oğlu İsmayılov | - Aparatın rəhbəri |
| Rüfət Nahid oğlu Mahmud | - Sədrin müşaviri |
| Gülbəniz Baba qızı Əliyeva | - Ümumi işlər və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri |
| Fəxri Əmirşah oğlu Aydəmir | - Şəhərsalma və ərazilərin inkişafı şöbəsinin müdir müavini |
| Çingiz Seydulla oğlu Dadaşov | - Demokratik İnkişafın Təşviqi İB-nin sədri |
| Şaban Fəxrəddin oğlu Nəsirov | - "İctimai İştirakçılığın Dəstəklənməsi" İB-nin sədri |
| Elnarə Aşir qızı Məhərrəmova | - "Regional Sosial-İqtisadi İnkişaf üzrə Maarifləndirmə" İB-nin sədri |
| Büllur Cavad qızı Məmmədova | - Mədəniyyətin və Milli Ənənələrin Təbliği İB-nin sədri |
| Qadir Nadir oğlu İbrahimli | - Güzəran Sosial Araşdırmalar İB-nin sədri |

2. Komissiya İctimai şuraya seçkilərin təşkili ilə bağlı zəruri tədbirləri görsün.

3. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin 19.01.2021-ci il tarixli 2/30 nömrəli məktubu ilə təqdim edilmiş Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarında ictimai nəzarətin həyata keçirilməsinə həsr olunmuş 24.12.2020-ci il tarixli görüşün Protokoluna uyğun olaraq, İctimai şuraya seçkilərə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının nümayəndəsinin dəvət edilməsini Komitə Aparatının Ümumi işlər və ictimaiyyətlə əlaqələr şöbəsi (G.Əliyeva) təmin etsin.

4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Əsas: Açıq Hökumətin təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoq Platformasının 13.04.2021-ci il tarixli 52/21 nömrəli məktub.

**Sədr** **Anar Quliyev**